

## ƏBÜLFƏZ ƏHMƏD

***Əbülfəz Əhməd (Əbülfəz Əli oğlu Əhmədov) 1950-ci ildə Ağcabədi rayonunun Salmanbəyli kəndində müəllim ailəsində anadan olub. 1974 cü ildə o vaxtkı Azərbaycan Politexnik İnstitutunu inşaat üzrə iqtisad mühəndisi ixtisası ilə bitirmişdir. İxtisası üzrə inşaat idarələrində şöbə müdiri kimi uzun illər çalışıb. Hazırda təqaüdçüdür.***
***Çap olunmuş kitabları:***
***1.Ən gözəl adlar (Əsma - ül - hüsna) ;***
***2.Hz. Məhəmmədin (s.ə.v.) kəlamları;***
***3.Hz. Məhəmmədin (s.ə.v.) vəsiyyətləri (Ya Əli).***
***Hər üç kitabı məsnəvi formasında işlənmişdir.***

# RÜBAİLƏR

Dünya pəncərədir, hər gələn baxa,
Baxmağın astarı üzündən baha.
Nalbəndi kor imiş axsaq atların,
Gah nala vurublar, gah da ki, mıxa.

***

Gah tinə çəkilib, gah da köşəyə,
Gah meyə uyuruq gah da nəşəyə
Ya Allah! Özün keç günahımızdan,
Deyən dil yalmanır gahdan şüşəyə

***

"Göyə atılan daş yerə tez düşər
"Bu qısa zamanda çox şey dəyişər"
Nizami babamız söyləyib bunu,
Cazibə qanunu deyilmi, bəşər?!

***

Ey adəm övladı, bir bunu düşün
Hər günü bayrama çevirmək mümkün
Mömінin bayramı sayılır axı,
Günaha batmadan keçirdiyin gün!

***

Saqi, rəvadımı candan üzüləm,
Süzginən şərabı, bəlkə düzələm
Eşidib, gözəllər naz eləyərlər
Nazı da eləyə bilmir gözəlim.

***

Əlində saxlaya bilsən yüyənin
Bu dünya sənin də olar köhlənin
Kimindir at deyən sorğuya cavab
Atalar deyibdir, onu minənin

***

Sanma umacağım, təmənnam çoxdu,
Sən özün bilirsən, könlümüz toxdu
Sən qədir bilmədin, məndə ki, səbir
Hər nazın könlünün evini yıxdı

***

Arzular əkmişəm sən gələn yola
Gəlib çıxdığın yer dönə gülzara
Sən də bir haram qat yerişə, nolar,
Ləngimək rəvadır bir intizara.

***

Çox gözəl yoluna boylandım baxdım
Yolumun üstünə sən gəlib çıxdın
Məni məcnun edib çöllərə salma
Saçımın, saqqalın ağaran vaxtı

***

Sənə salam olsun ey gözəl insan,
Sənin bu işindən qaldım nigaran.
Hər şeyi buraxıb şans ümidinə,
Tutsa qatıq dedin, tutmasa ayran.

***

Haqdan, ədalətdən danışanda mən,
Yüz nadan üzünü çevirdi məndən
Ey dünya malına susayan həris,
Bir haram miras da qalacaq səndən.

# QALDI

***(Ramiz İsmayılla söhbət)***

***Əbülfəz***
Təbinə şübhəm yox, sözünə şəkkim,
Sözünün yoluna gözümü dikdim.
Mən də yad şəhərdə arzular əkdim.
Şitilim bitmədi, əlimdə qaldı.

***Ramiz***
"Təbinə şübhəm yox, sözünə şəkkim",
Sözünün ləzzəti dilimdə qaldı.
Özünə vətəndə qərib deyirsən
Qələmim quruyub əlimdə qaldı.

***Əbülfəz***
Sənin sorağını Rasimdən aldım,
Dilində nisgil var, sözlərin baldı.
Sözün körüyünə əlimi saldım,
Onun nişanəsi əlimdə qaldı.

***Ramiz***
Məni sərin mehdən, nəsimdən soruş,
Ya sazdan xəbər al, ya simdən soruş.
Dünyanın sirrini Rasimdən soruş,
Könül duyğularım elimdə qaldı.

***Əbülfəz***
Sınaq - şairlərin tale yoldaşı,
Qınaq - ömrümüzün ləli, daş-qaşı.
Tənə - adımızla daim yanaşı,
Çox şeyi demədim, dilimdə qaldı.

***Ramiz***
Qəmə sirdaş olar tale şairi,
Qorxutmaz "eşq" adlı bəla şairi.
Atdılar bulanıq selə şairi,
Durulub, saflaşıb gölümdə qaldı.

***Əbülfəz***
Deyirsən əzəldən kəm olub bəxtim,
Yox, bəxtin yanından quş kimi səkdim.
Səni "xatırlayıb payıza" baxdım,
Çox sözüm könlümdə, dilimdə qaldı.

***Ramiz***
Mənimlə yoldaşdı hələ də bəxtim,
Əbləhə, nadana zirvədən baxdım.
Qardan təmiz idim, əriyib axdım.
Çağlayan çağlarım elimdə qaldı.

***Əbülfəz***
Ömrün zirvəsinə yol var, gedirik,
Bu yolda addımı gərək bərkidək.
Şikayət edirik, giley edirik,
Nisgilim gözümdə, dilimdə qaldı.

***Ramiz***
Ömrün zirvəsinə aparan yol var,
Bu yolda bələn var, bu yolda yal var.
Dizinə güvənib bəxtinə yalvar,
Közümün atəşi külümdə qaldı.

***Əbülfəz***
Şairlər həsrətdə, qürbətdə bişər,
Yazda xatırlansaq yerinə düşər.
Hərənin bəxtinə bir nalə düşər,
Son ucu kəndimdə, elimdə qaldı.

***Ramiz***
Ağlı kəmlər gecə-gündüz əlləşər,
Qismətinə beşcə arşın bez düşər.
Nə qədər yığsa da tamahkar bəşər,
Gözləri xalçada, kilimdə qaldı.

***Əbülfəz***
Arzu göyərmədi, neynəyək, qardaş,
Tutmaz qolumuzdan bir bilək, qardaş.
Bu dərdi bəs kimlə biz bölək, qardaş?
Yarımçıq ömrümüz bölümdə qaldı.

***Ramiz***
Arzu göyərmədi, ürək göynədi,
Sağalmaz göynəkdi ürək göynəyi.
Dünənki təzə dərd bu gün köhnədi,
Bəmimdə yurd salıb zilimdə qaldı.

***Əbülfəz***
İtən günlərimiz artırar sanı,
Dərdimiz elə bil arının şanı.
Birindən sıyrılıb qurtardım canı,
Hələ gör neçəsi ilimdə qaldı.

***Ramiz***
İtən günlərimi axtarsam əgər,
Bilmərəm ağudur, bilmərəm zəhər.
Arı gül üstündə bal şəhdi çəkər,
Mənim də bal payım gülümdə qaldı.

***Əbülfəz***
Yad şəhər münbitdi yad arzulara,
Sən istər yüz daşın, ya arzu ara.
Torpağım hədəfdir yad arzulara,
Əlacı haraya gəlimdə qaldı.

***Ramiz***
Şəhər yad olsa da Vətən yad olmaz,
Vətənsiz insanın könlü şad olmaz.
Torpağın dadından şirin dad olmaz,
Ləzzəti ağzımda, dilimdə qaldı.

***Əbülfəz***
Şəllədim belimə neçə arzunu,
Dedim istisinə gedim qızınım.
Gözün yolda qoydum bir el qızının,
İstisi hələ də əlimdə qaldı.

***Ramiz***
Eşqin nə sonu var, nə də əzəli,
Könlüm  həmdəm seçib şeri, qəzəli.
Arxamca ah çəkdi bir el gözəli,
Nigaran baxışı telimdə qaldı.

***Əbülfəz***
Sözlərin bal kimi şəhdini çəkdim,
Oxuyub dərindən ahımı çəkdim.
Özgə danasını örüşə çəkdim,
Örkənim, sicimim əlimdə qaldı.

***Ramiz***
Söz ilan zəhəri, söz beçə balı,
Söz tikər, söz sökər cahi-cəlalı.
Köhlənim qocaldı, söküldü nalı,
Paslanmış yüyənim əlimdə qaldı

***Əbülfəz***
Məni danışdıran elə, dərdimsə,
Nisgilin türlüsün gəzib dərdimsə,
Mən gülü ayrı bir bağdan dərdimsə,
Yad əli gülzarda, gülümdə qaldı.

***Ramiz***
Tükənmir ağrımız, bitmir dərdimiz,
Birgə bölək, birgə çəkək dərdi biz.
Yurd nisgili, Vətən dərdi - dərdimiz,
Düşmən tapdağında, zülümdə qaldı.

***Əbülfəz***
Bir dost bir çəpişə tay tutulursa,
Şairə qürbətdə "toy" tutulursa,
Ölən arzulara vay tutulursa,
Dəsmalım, yaylığım əlimdə qaldı.

***Ramiz***
Bir dost itirmişəm, yanmıram hədər,
Qiyməti yoxdursa bir çəpiş qədər.
Şairi qürbətdə bürüyər kədər,
"Dəsmalım, yaylığım əlimdə qaldı"

***Əbülfəz***
Doğrudur, Vətənim çox böyük deyil,
Sənə deyəcəyim heç öyüd deyil.
Yad yerdən evlənmək heç eyib deyil,
Olsun ki, sonalar gölümdə qaldı.

***Ramiz***
Vətənin kiçiyi olmaz, Əbülfəz,
Quruyub çiçəyi solmaz, Əbülfəz.
Qisas qiyamətə qalmaz, Əbülfəz,
Demə ki, "əlacı ölümdə" qaldı.

***Əbülfəz***
Əbülfəz deyirlər mənim adıma,
Yüz nöqsan qoşurlar bircə addıma.
Ötən günlərimi salsam yadıma,
Qismətim olumda, ölümdə qaldı.

***Ramiz***
Ramizəm, axtardım ötən günləri,
Bir göz qırpımında itən günləri.
Qayğılı, qayğısız bitən günləri,
Əlçatmaz ayımda, ilimdə qaldı.

# *ATAMA*

Bir, xatirə işığıdır adın -
Ömrün üzündə,
Adımın üstündə.
Bir yelkən kimidir
Həyat dənizində...